Baku 2015
1ST EUROPEAN GAMES

Tamaşaçı Məlumatı
Karate



Bakı 2015 Sizləri Salamlayır

Bu bələdçi Sizə idman məkanına necə getməyiniz, orada nələrlə qarşılaşacağınız və idman məkanında mövcud olan xidmətlər barədə məlumat verəcək; bu da sizin ən yaxşı oyun təcrübəsi qazanmanıza və sevdiyiniz idman yarışlarından zövq almanıza imkan verəcəkdir.

Qaydaların icmalı

Karateyə müxtəlif texnika, o cümlədən qarşı tərəfi bloka salmaq, yaxud onun hərəkətinə mane olmaq, zərbələr, zərbədən qaçmalar, hücumlar və birgə manipulyasiyalar daxildir. Karate yarışı iki döyüş qaydasından ibarətdir: kata və kumite. Kişilərin Kumite yarışında hər hissə üç, qadınların yarışında isə iki dəqiqədən ibarətdir.

İdmançılar istifadə etdikləri bacarıq və hərəkətlərə görə xal qazanırlar. Kumite üzrə etibarlı xallar aşağıdakı qaydadadır:

- Bir ("Yuko") xal – bədənə bir tutarlı yumruq;
- İki ("Vaza-Ari") xal – bədənə bir tutarlı ayaq zərbəsi;
- Üç ("Ippon") xal – başa bir tutarlı ayaq zərbəsi.
- Səhv gediş növünə və məsləhət məzmununa görə təsnif edilir. Səhv gediş növlərinə xəbərdarlıq, ciddi xəbərdarlıq və diskvalifikasiya (qalibiyyətin qarşı tərəfə verilməsi) daxildir.

Kata döyüş qaydası təqribən 20-70 müəyyənləşdirilmiş hərəkət ardıcıllığının yerinə yetirilməsidir, bu hərəkətlər zamanı, əsasən, mükəmməl forma almaq məqsədilə addımla və dönmə hərəkətləri yerinə yetirilir. Yarış iştirakçıları hər raundda müxtəlif Kata hərəkətləri nümayiş etdirməlidirlər. Qaliblər hakimlər tərəfindən seçilir.

Yarışın formatı

Hər bir Karate görüşü idmançıların hər birində dörd nəfər olmaqla, iki qrupa bölünməklə keçirilir. İdmançılar qrup daxilində bir-birləri ilə mübarizə aparırlar. Hər bir qrupun qalibi yarımfinala yüksəlir.

Qızıl medal uğrunda mübarizə görüşü yarımfinalda qalib gələn, bürünc medal uğrunda mübarizə görüşü isə yarımfinalda məğlub olan idmançılar arasında keçirilir.

Yarışın icmalı

Yarışın keçiriləcəyi yer:
Bakı Kristal Zalı 3

Yarışın keçiriləcəyi tarixlər:

13 – 14 iyun 2015

2 yarış günü

96 idmançı

12 medal dəsti üzrə



Məkan məlumatı

Məkanın Adı:

Bakı Kristal Zalı 3

Məkanın ünvanı:

Dövlət Bayraq Meydanı,
Səbail rayonu,
Bakı, Azərbaycan

Məkana dair faktlar:

Karate üzrə yarışlar Kristal Zalı 3-də keçiriləcəkdir. Kristal Zal Xəzər dənizində yarımadanın Bakı körfəzindəki çıxıntısının üzərində olan simvolik Bayraq Meydanı ərazisində yerləşir. Bu nizamlana bilən və çox-məqsədli məkan 2012-ci ildə keçirilmiş Avroviziya Mahnı Müsabiqəsi zamanı açılmışdı və bu kompleks o vaxtdan bəri müxtəlif əyləncə, biznes və idman tədbirlərinə ev sahibliyi edib.

Kristal Zalı 3 əsas zalın şərq hissəsində olan ərazidə yerləşəcəkdir. Karate yarışlarından başqa, məkan həmçinin Bakı 2015 Oyunları ərzində Qılıncoynatma və Taekvondo yarışlarına da ev sahibliyi edəcəkdir.

İdman yarışlarının cədvəli

13 iyun	**14** iyun
şənbə	*bazar*
10:00 – 13:30 K/Q	10:00 – 13:30 K/Q
15:30 – 19:15 K/Q	15:30 – 19:15 K/Q

Bu məlumat nəşriyyat tarixinə düzgündür. Yarış sessiyalarının başlama vaxtı dəyişə bilər, bitmə vaxtları isə təxmini göstərilmişdir. Yarış sessiyalarının ən son vaxt cədvəlləri barədə məlumat almaq üçün baku2015.com saytına müraciət edə bilərsiniz.

İlkin mərhələ Final / Medal mərasimləri **K** – Kişi **Q** – Qadın

Bakı Kristal Zalı



© Bakı Avropa Oyunları Əməliyyat Komitəsi (BAOƏK) 2015 . Bütün hüquqlar qorunub.

Bakı Kristal Zalına səfər

Parkinq

Tədbirin keçirildiyi yerdə nəqliyyat vasitələrinin park olunmasına icazə verilmədiyinə görə, həmin yerə şəxsi avtomobilinizlə getməməyiniz xahiş olunur.

Avtomobilinizi Mərkəzi Parkda yerləşən Xüsusi Parklanma Zonalarında park edərək, oradan müvafiq Ekspres Avtobus xidmətindən istifadə edərək Avropa Oyunları Parkına gedə bilərsiniz.

Tövsiyə olunan Nəqliyyat Vasitələri

Bakı Kristal Zalına getmək üçün aşağıda qeyd olunan nəqliyyat vasitələrindən istifadə etməyiniz tövsiyə olunur.

Metro

Metro səhər saat 06:00-dan gecə saat 01:00-dək 19 saatlıq iş qrafiki üzrə fəaliyyət göstərəcək.

Yarış obyektinə ən yaxın metro stansiyası "İçərişəhər"-dir və obyektin girişindən təqribən 40 dəqiqəlik piyada məsafədədir.

Ekspres Avtobus Marşrutları

Ekspres Avtobus Marşrutları Oyunları zamanı 20 saatlıq iş qrafiki üzrə fəaliyyət göstərəcək və tamaşaçılar üçün ödənişsiz olacaq. Azərbaycan vətəndaşı olan tamaşaçılar Şəxsiyyət Vəsiqəsini, xarici ölkə vətəndaşı olan tamaşaçılar isə, Pasportunu və həmin gün üçün etibarlı olan bileti (və ya biletin alınmasını təsdiq edən sənədi) təqdim etməklə Ekspres Avtobus xidmətlərindən istifadə edə bilər.

Yarış obyektlərində bilet almağı planlaşdıran tamaşaçılar öz Şəxsiyyət Vəsiqələrini təqdim etməklə Ekspes Avtobuslardan istifadə edə bilərlər. Ekspres Avtobus xidmətinə tələbat çox olduğu təqdirdə, üstünlük bileti olan tamaşaçılara veriləcək. Buna görə də, öz rahatlığınız üçün, biletinizi öncədən almağınız tövsiyə olunur.

Ekspres Avtobus Marşrutu: Tədbirin keçirildiyi yerə **X14** və **X18** nömrəli Ekspres Avtobus Marşrutları xidmət göstərir.

Yarış obyekti	Marşrutun nömrəsi	Başlanğıc dayanacaq	Ara dayanacaq	Son dayanacaq
Bakı Kristal Zalı	X14	Elmlər Akademiyası metro stansiyası	Bakı İdman Zalı	Bakı Kristal Zalı
Bakı Kristal Zalı	X18	28 May metro stansiyası	Mərkəzi Park (Füzuli Meydanı)	Bakı Kristal Zalı

*Ekspres Avtobus Marşutlarının iş qrafikini öyrənmək və ya yarış obyektinə gəliş/gediş üçün avtobus və metrodan birgə necə istifadə edəcəyinizi bilmək üçün **baku2015.com** səhifəsinin Tamaşaçılar bölməsinə baxa bilərsiniz.*

Fiziki məhdudiyyəti olan şəxslər üçün məlumat

- Fiziki məhdudiyyəti olan şəxslər və yaşlı tamaşaçılar xüsusi nəqliyyatla təmin edilir: buraya fiziki məhdudiyyəti olanlar üçün xüsusi parkinq əraziləri, bir sira ekspres avtobus xətləri və idman məkanlarında enmə/minmə üçün fiziki məhdudiyyəti olan şəxslərə ayrılmış dayanacaqlar daxildir
- Bütün idman məkanlarında sizin və sizi müşayiət edən şəxslər üçün fiziki məhdudiyyəti olan şəxslər aid tualetlər, bufet və oturacaqlar mövcuddur
- Xüsusi ehtiyacı olan tamaşaçılara yardım göstərmək üçün idman məkanlarında yardım xidmətləri mövcuddur


Fiziki məhdudliyyəti olan şəxslərə aid daha ətraflı məlumat üçün 2015 Avropa Oyunlarının Tamaşaçı Məlumat Mərkəzinə zəng edin və ya baku2015.com-un “Tamaşaçılar” səhifəsinə daxil olun

Məkanın daxili



- Giriş/Çıxış
- Fiziki Məhdudiyyəti Olan Şəxslər üçün tualet
- Tibbi Xidmət
- Tualet
- Siqaret Çəkmək Üçün Ərazi
- Uşaq Arabalarını Saxlama Yeri
- Məlumat
- Tapıntılar bürosu
- ATM
- Bufet
- Satış

Məkanın daxili



Mərtəbə 1

Tamaşaçı Oturacaqları Kat. A

Giriş/Çıxış

Fiziki Məhdudiyyəti Olan Şəxslər üçün Oturacaqlar

Giriş şərtləri

- Tamaşaçılar (bilet sahibləri) etibarlı biletə sahib olmalıdır
- Bütün idman məkanlarında elektron bilet yoxlaması aparılacaq – hər kəs oyunlarda iştirak etdiyi müddətdə bileti daim üzərində saxlamalıdır
- 16 yaşdan yuxarı şəxslər yarışın keçirildiyi məkana daxil olmaq üçün etibarlı bilet və Dövlət tərəfindən verilmiş vəsiqə (Azərbaycan vətəndaşları üçün şəxsiyyət vəsiqəsi) və ya pasportu (əcnəbilər üçün) özləri ilə birlikdə gətirməlidirlər
- 28 iyun 2015-ci il tarixində 16 yaşdan aşağı olan bütün tamaşaçılar yarışa gələrkən, onları dövlət tərəfindən verilmiş Vəsiqə (Azərbaycan vətəndaşları üçün Şəxsiyyət Vəsiqəsi) və ya Pasport (xarici vətəndaşlar üçün) ilə birlikdə etibarlı biletləri olan böyüklər (18+) müşayiət etməlidirlər
- İki yaşdan aşağı olan uşaqlar biletsiz buraxılır, lakin onlar valideynlərinin və ya müşayiətçilərinin qucaqlarında əyləşməli və ayrıca bir oturacaq və yaxud yer tutmamalıdırlar.
- Bilet sahiblərinə Dövlət qanunvericiliyi ilə müəyyən edilən qanunsuz, təhlükəli və ya təhlükəsizliyə xətər yetirə biləcək əşyalarla idman məkanlarına daxil olmağa icazə verilməyəcək. Qadağan olunmuş əşyaların tam siyahısı Bakı 2015-in veb saytında təqdim olunub.
- Bilet sahiblərinə hər hansı yarış sessiyasını yarıda tərk etməyə və (eyni biletdən istifadə etməklə) təkrar məkana daxil olmağa icazə verilmir.
- Hər hansı Oyun Məkanında və ya Oyun Məkanı yaxınlığında heç bir kommersiya, təbliğat, reklam və ya marketinq (o cümlədən xeyriyyə) fəaliyyəti həyata keçirilə bilməz.

Hazır olun...

- Rahatlığınız və növbədə gözləməməniz üçün biletlərinizi yarış gününə qədər bilet satış məntəqələrindən əldə etməniz və götürməniz tövsiyyə olunur
- Kristal Zalın giriş qapıları yarışın başlanmasından 90 dəqiqə əvvəl, Kristal Zalı 2-nin qapıları isə yarışın başlamasına 60 dəqiqə qalmış açılacaqdır. Məkanın girişində təhlükəsizlik skrininq sahəsində uzun növbənin qarşısını almaq məqsədilə stadionun giriş hissəsinə bir qədər əvvəl gəlməniz tövsiyyə olunur
- Məkanın girişində bir qədər vaxtınızı alacaq "hava limanı üslubu" təhlükəsizlik yoxlanışı keçəcəyiniz gözlənilir
- Tamaşaçılara şəxsi istifadələri üçün orijinal istehsalçı qablaşdırmasında, "münasib" miqdarda xarab olmayan qidaların gətirmələrinə icazə verilir – "münasib" dedikdə çipslər, peçenye və çərəzlər (yüngül qidalar) başa düşülür
- Özünüzlə günəşə qarşı krem (100 ml-lıq həcmdə) gətirməniz, günəş kepkası və rahat ayaqqabı geyinməniz və sudan çox istifadə etməniz məsləhət görülür - havanın isti olacağı gözlənilir.
- Özünüzlə nağd pul gətirin – yarış məkanlarında fəaliyyət göstərən qida və alış-veriş məntəqələri yalnız nağd ödəniş qəbul edir. Məkanda bankomatlar (ATM) mövcuddur
- Müxtəlifliyi ilə hər kəsə uyğun olan köynəklər, çantalar, fincanlar, rəmzi oyuncaqlar və Bakı 2015 Avropa Oyunlarının digər rəsmi ticarət məhsullarını almaq fürsətini qaçırmayın
- Məkan ətrafında və daxilində getmək istədiyiniz yerlərə uyğun müfaviq işarələri taparaq hərəkət edin
- Yarış məkanlarında hər hansı sualınızın cavablandırılması üçün Məkanda olan Məlumat məntəqəsinə müraciət edin

Hazır olun...

- Yarış məkanlarında bilet sahiblərinin şəxsi əşyalarının saxlanılması üçün ayrılmış yer mövcud deyildir (uşaq arabaları istisnadır, belə ki, onları oturduğunuz yerə aparmanıza icazə verilmədiyinə görə həmin arabaları xüsusi olaraq müəyyən olunan ərazidə saxlamalısınız)
- Yarış məkanlarında yalnız xüsusi olaraq ayrılmış yerlərdə siqaret çəkmək mümkündür
- Ətraf mühiti qorumaqda bizə kömək edin – zibil atarkən yarış məkanlarına qoyulmuş müfaviq zibil qutularından düzgün istifadə edin
- Məkanın qaydalarına və davranış kodeksinə riayət edin

Əsas əlaqə məlumatları

Təcili yardım

Fövqəladə hallar zamanı aşağıdakı telefon nömrələri ilə əlaqə saxlamanız xahiş olunur:

101 – Yanğın

102 – Polis

103 – Təcili tibbi yardım

112 – Krizis Mərkəzi

Bakı 2015 Tapıntılar Bürosu

Yarış məkanlarında hər hansı şəxsi əşyanın itirilməsi və ya tapılması ilə bağlı aşağıdakı nömrə ilə əlaqə saxlamanız xahiş olunur: **+994 (0) 12 525 5678**

Tapıntıılar Bürosu, AF Mall-un (Giriş Bülbül prospekti ilə – UAM üçün işarələri izləyin) 2-ci mərtəbəsi.

2015 – Avropa Oyunlarının Tamaşaçı Məlumat Mərkəzi

Biletlərlə bağlı suallarla əlaqədar:

2015 və ya **+994 (0) 77 2015 000** (beynəlxalq zənglər üçün) nömrəsi ilə, və ya ticket@baku2015.com elektron poçt ünvanı ilə əlaqə saxlayın.

Bakı 2015 Oyunları haqqında ümumi məlumat üçün:
2015 və ya **+994 (0) 77 2015 000** (beynəlxalq zənglər üçün) və ya baku2015.com rəsmi internet səhifəsinə müraciət edin.

Sponsorlar

Baku 2015
1ST EUROPEAN GAMES

Bakı 2015-ə dəstək verdiklərinə görə aşağıda göstərilən şirkətlərə və təşkilatlara öz təşəkkürümüzü bildiririk.

Rəsmi Tərəfdaşlar

AZAL
bp
Coca-Cola
Kapital Bank
nar
P&G
SOCAR
TISSOT
SWISS WATCHES SINCE 1853

Rəsmi Dəstəkçilər

azercosmos
AZERSUN
BAZARSTORE
milla
MOTOROLA SOLUTIONS
NAZ
Nestlé
Good Food, Good Life
sitecore
Tickethour

Beynəlxalq Uşaq Hüquqları Təşkilatı

unicef

Bu məlumat nəşriyyat tarixinə düzgündür. Daha ətraflı yenilənmış məlumat baku2015.com saytında verilmişdir